Ədəbiyyat qəzeti

8 iyul 2023-cü il 23

# Şahin MUSAOĞLU-60



Hörmətli Şahin müəllim!

Sizi - istedadlı şairimizi 60 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1963-cü il iyulun 11-də Masallı rayonunun Qızılağac kəndində anadan olmusunuz. 1986-cı ildə Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsini bitirib, təyinatla 4 il Biləsuvar rayonunda, 1990-cı ildən Mərkəzi Dənizçilər Xəstəxanasında həkim işləmisiniz. Hazırda Bakıdakı "Medservis" özəl tibb mərkəzinin poliklinika müdiri, "Badam medikal-center" klinikasının diaqnostika şöbəsinin müdiri vəzifəsində çalışırsınız.

Bədii yaradıcılıqla gənc yaşlarından məşğulsunuz. "İgid əsgər, möhkəm dayan" , "Yaşamaq gözəldir, yaşatmaq sonsuz", "Ağ ümid", "Cəng əsgəri", "Güllədən biçilmiş bir köynək", "Mübariz", "Beş qapı" və rus dilində nəşr olunmuş "Svetitğ vseqda, svetitğ vezde!" adlı 8 kitabınız, onlarla bədii, elmi məqaləniz və esseləriniz nəşr olunub. 40-a yaxın mahnının əksəriyyətinin musiqi və söz müəllifisiniz. Şeirləriniz yerli və xarici mətbuat orqanlarında, o cümlədən, Böyük Britaniya, ABŞ, İran, Türkiyə, Küveyt və Rusiyanın populyar dərgi, qəzet və internet saytlarında işıq üzü görüb. Müəllifi olduğunuz mahnılardan Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyevin xatirəsinə həsr etdiyiniz "İgid əsgər, möhkəm dayan", 20 Yanvar şəhidlərinin xatirəsinə həsr etdiyiniz "Qərib karvan", Milli Ordunun ilk batalyonu haqda yazdığınız "Birinci batalyon", eləcə də "Cənab leytenant", "Çağırır Vətən", "Vətən əmanəti", "Öncə Vətəndir", "İstiqlal marşı", "Səma şahinləri", "Səfərbərlik marşı", "Yaşa, yaşa, Azərbaycan", "Ölkəm", "Şuşa marşı" kimi mahnılar geniş populyarlıq qazanıb. "İgid əsgər, möhkəm dayan", "Cənab leytenant" və "Əsgər, Vətən əmanəti" adlı üç musiqi əsəriniz Elm və Təhsil Nazirliyinin rus və Azərbaycan bölməsinin dərs vəsaitlərinə salınıb. Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimova həsr olunmuş "Mübariz" operasının librettosu, "Mübariz" radio-tamaşasının, dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Xəmsə"si əsasında hazırlanmış "Beş qapı" musiqili tamaşanın ssenarisi sizə məxsusdur. "Cənab leytenant", "Vətən əmanəti", "Zəfər dastanı" kimi simfonik əsərlərin də müəllifisiniz. Müdafiə Nazirliyinin Tibb İdarəsi, HET idarəsi və nazirliyin Sənədli Filmlər Kinostudiyasının əməkdaşı kimi, tibb xidmət zabiti olaraq Qarabağ döyüşlərinin iştirakçısı olmuş, yaralı əsgər və zabitlərlə bağlı ilk hərbi-tibbi arxivin yaradılmasına rəhbərlik etmişsiniz.

Azərbaycan Yazıçılar Birliyi Hərbi-vətənpərvərlik komissiyasının sədri, İLESAM, MDB Beynəlxalq Yazıçılar Birliyi, Dünya Tibbi Araşdırmalar Texniki və Etik Bilimlər Akademiyası (WAMBES) İdarə Heyətinin üzvü, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının professorusunuz.

Hörmətli Şahin müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**